# Ey Əbul Munzir, bilirsənmi, Allahın kitabındakı hansı ayə daha əzəmətlidir?" Dedi: Mən cavab verdim :{Allah, Ondan başqa ibadətə layiq məbud yoxdur, əbədi Yaşayandır, bütün yaratdıqlarının Qəyyumudur.} [Əl bəqərə:255] O sinəmə vurub dedi: "Ey Əbul Munzir, vallahi elm sənə mübarək olsun

Ubey bin Kəbdan (Allah ondan razı olsun) Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) belə dediyi rəvayət edilir: "Ey Əbul Munzir, bilirsənmi ki, Allahın kitabındakı hansı ayə daha əzəmətlidir?" Dedi: Mən cavab verdim: Allah və Rəsulu ən doğrusunu bilir! Dedi: "Ey Əbul Munzir, bilirsənmi, Allahın kitabındakı hansı ayə daha əzəmətlidir?" Dedi: Mən cavab verdim :{Allah, Ondan başqa ibadətə layiq məbud yoxdur, əbədi Yaşayandır, bütün yaratdıqlarının Qəyyumudur.} [Əl bəqərə:255] O sinəmə vurub dedi: "Ey Əbul Munzir, vallahi elm sənə mübarək olsun."

[Səhih] [Muslim rəvayət etdi]

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) Ubey bin Kabdən Allahın kitabında olan ən əzəmətli ayə haqqında soruşur. O isə tərəddüd edir, sonra deyir: Bu kürsi ayəsidir: {Allah, Ondan başqa ibadətə layiq məbud yoxdur, əbədi Yaşayandır, bütün yaratdıqlarının Qəyyumudur.} Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) onu dəstəkləyib, sinəsinə vuraraq qəlbinin elm və hikmətlə dolu olduğuna işarə edir. Bu elmlə xoşbəxt olması üçün və elmin ona asanlaşdırılması üçün Allaha dua edir.



النجاة الخيرية
ALNAJAT CHARITY
لجنة الدعوة الإلكترونية
EDC E-Da'wah Committee